Hacı Firudin
SÜLEYMANOĞLU

## *Haqla nahaq arasında*

Haqla nahaq arasında
Ömrü boyu yandı canım.
Nə istəsən qurban olsun,
Haqqa bir qurbandı canım.

Dağ aşacaq, düz keçəcək,
Əlində saz-söz keçəcək,
Nəyi keçsə düz keçəcək,
Düzlüyə heyrandır canım.

Yolçu, burdan sal yolunu,
Gəl arama sağ-solunu,
Billəm dərdin üsulunu,
Qəmliyə mehmandır canım.

Qırğı əldən bir quş verməz,
Bülbül yerin bayquş verməz,
Firudin vaxtı boş verməz,
Kitabdır, irfandır canım.

## *Dağla dəniz birləşər*

Xəyalım dolandıqca
Bu göylərin üzündə,
Nələr gördü bilsəniz
Dağında, dənizində...

Dağı qarlar əyibdir,
Açılmayır zirvəsi.
Dənizi külək qovur,
Kəsilibdir nəfəsi.

Min illərdir dövr edir
Dağın qara cəfası.
Min illərdir dayanmır
Dəniz, külək davası.

Bəlkə dağa söykənən
Dəniz olsam yaxşıdır?
Bəlkə dənizdə bir dağ -
Təmiz qalsam yaxşıdır?

Xəyalım dolandıqca
Bu göylərin üzündə,
Nələr gördü bilsəniz
Dağında, dənizində...

## *Ürəyim*

Min həsrətin gümanı var başımda,
Çinar kimi haçalandı ürəyim.
Bir xoş günün sorağıyla, hayıyla
Dərd yükünü borc alandı ürəyim.

Ömür uçdu nəfəs kimi, səs kimi,
Unutmaram tale verən dərsimi.
Kim siləcək suda qalan əksimi?
Neçə yerə parçalandı ürəyim.

Əllərimdə zəhmətimin əvəzi,
Gözlərim də dərdlərimə tərəzi.
Saçlarımda ağ tüklərin mərəzi,
Neçə dərddən öc alıbdır ürəyim.

Ağrıların-acıların azalmaz,
Ay Firudin, dərdi topla, haqqa yaz.
Canımdadır o göynərti, o ayaz-
Qarabağdır, Xocalıdır ürəyim.